DOI: doi.org/10.61226/12.2.2023/20252.11
UOT: 94 (479.24)
Əfqan QASIMZADƏ
Daxili İşlər Nazirliyinin Polis Akademiyası
polis polkovnik-leytenantı, tarix üzrə fəlsəfə doktoru
efqan.qasimov@mail.ru

AZƏRBAYCANIN MÜASİR TARİXİNDƏ HEYDƏR ƏLİYEV EPOXASI: ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA BİRİNCİ RƏHBƏRLİYİ DÖVRÜNDƏ ELMİN İNKİŞAFI

Xülasə: Məqalədə dünya şöhrətli siyasəti, görkəmli dövlət xadimi, müasir çiçəklənən Azərbaycanın memarı, Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə elmin inkişafı üçün göstərdiyi misilsiz xidmətlərdən bəhs olunur. Müəllif məqalənin giriş hissəsində cəmiyyətin ictimai həyatında və gələcək inkişafında elmin rolu, Azərbaycan Xalq Cümhuriyyəti və 1969-cu ilə qədərki dövrdə elmin mövcud vəziyyəti barədə məlumat vermişdir.

Mətn hissədə isə Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Mərkəzi Komitənin birinci katibi seçilməsindən sonra müxtəlif elm sahələrinin inkişafı ilə bağlı həyata keçirilmiş tədbirlərdən, görkəmli alimlərlə mütəmadi olaraq görüşərək elmin inkişafı üçün qarşıda duran vəzifələr və görülməli olacaq işlərin ətraflı müzakirə edilməsindən bəhs olunur. Ulu Öndər eyni zamanda alimlərin, ziyalıların, ədiblərin məişət problemləri ilə hər zaman maraqlanaraq onları diqqət mərkəzində saxlamışdır. Bununla yanaşı, məqalədə Azərbaycanın qədim dövr tarixinin öyrənilməsinə Heydər Əliyevin xüsusi həssaslıqla yanaşması da yer almışdır.

Müəllif məqalənin nəticə hissəsində elmin Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə başlanmış inkişafının bu gün də davam etdiyini, Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərdə yenidənqurma işləri ilə yanaşı, arxeoloji tədqiqatlara başlanıldığını, həmçinin, artıq fəaliyyət göstərən Qarabağ Universitetinin də elmin gələcək inkişafına böyük töhfələr verəcəyini göstərmişdir.

Açar sözlər: Heydər Əliyev, Azərbaycan, birinci rəhbərlik dövrü, elm, inkişaf.

Afgan GASIMZADE

THE HEYDAR ALIYEV ERA IN THE MODERN HISTORY OF AZERBAIJAN: THE DEVELOPMENT OF SCIENCE DURING THE FIRST LEADERSHIP OF THE GREAT LEADER HEYDAR ALIYEV IN AZERBAIJAN

Abstract: This article discusses the unparalleled contributions of the world-renowned politician, prominent statesman, and architect of modern flourishing Azerbaijan—our National Leader Heydar Aliyev—toward the development of science during his first leadership period in Azerbaijan. In the introduction, the author provides information on the role of science in the social life and future progress of society, as well as the state of science during the period of the Azerbaijan Democratic Republic and prior to 1969.

The main body of the article focuses on the measures implemented to advance various fields of science following Heydar Aliyev's election as First Secretary of the Central Committee in 1969. It highlights his regular meetings with prominent scholars to thoroughly discuss the tasks ahead and the work needed for scientific progress. The National Leader also consistently showed

concern for the living conditions of scholars, intellectuals, and writers, keeping their issues in the spotlight. Furthermore, the article emphasizes Heydar Aliyev's particularly sensitive approach to the study of ancient Azerbaijani history.

In the conclusion, the author states that the scientific development initiated during Heydar Aliyev's first leadership continues to this day. Following the liberation of Azerbaijani lands under the leadership of our Commander-in-Chief, reconstruction efforts have begun in the liberated territories alongside archaeological research. The newly established Karabakh University is also expected to make significant contributions to the future development of science.

Keywords: Heydar Aliyev, Azerbaijan, first leadership period, science, development.

Афган ГАСЫМЗАДЕ

ЭПОХА ГЕЙДАРА АЛИЕВА В НОВЕЙШЕЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА: РАЗВИТИЕ НАУКИ В ПЕРИОД ПЕРВОГО РУКОВОДСТВА ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНЕ

Абстракт: В статье рассматриваются неоценимые заслуги, оказанные в развитии науки всемирно известным политиком, выдающимся государственным деятелем, архитектором современного процветающего Азербайджана, нашим общенациональным лидером Гейдаром Алиевым в период его первого руководства Азербайджаном. Во вступительной части статьи автор предоставил информацию о роли науки в общественной жизни и будущем развитии общества, о современном состоянии науки в Азербайджанской Демократической Республике и в период до 1969 года.

В текстовой части обсуждаются меры, принятые великим лидером Гейдаром Алиевым в связи с развитием различных направлений науки после его избрания первым секретарем Центрального Комитета в 1969 году, и подробное обсуждение задач и работы, которую предстоит выполнить для развития науки, путем регулярных встреч с видными учеными. В то же время Великий Лидер всегда интересовался повседневными проблемами ученых, интеллигенции и писателей, держа их в центре внимания. Кроме того, в статье также отражен особо чуткий подход Гейдара Алиева к изучению древней истории Азербайджана.

В заключительной части статьи автор показывает, что развитие науки, начавшееся в период первого руководства Гейдара Алиева Азербайджаном, продолжается и сегодня, после освобождения наших земель от оккупации под руководством нашего Верховного Главнокомандующего наряду с восстановительными работами на этих территориях были начаты археологические исследования, а также уже функционирующий Карабахский университет внесет большой вклад в будущее развитие науки.

Ключевые слова: Гейдар Алиев, Азербайджан, период первого руководства, наука, развитие.

Giriş. Hər bir xalqın milli tərəqqisində və inkişafında elm və təhsil mühüm yer tutur. Elm hər bir dövlətin əsas sütunlarından biri olmaqla onun inkişafı tarix boyu hər zaman dövlət və ictimai xadimləri, mütəfəkkirləri düşündürmüş və dünyanın müxtəlif ölkələrində elmin inkişafı üçün müxtəlif istiqamətdə olmaqla tədbirlər həyata keçirilmişdir.

Məlumdur ki, Azərbaycan dünya elminə görkəmli alim və mütəxəssislər, o cümlədən filosoflar, yazıçılar, şairlər bəxş etmişdir. Avropadan bir neçə əsr əvvəl intibah dövrünü yaşamış Azərbaycanda

həmin dövrün görkəmli elm və ədəbiyyat nümayəndələri nəsli formalaşmışdır ki, onların da nəinki Azərbaycanın, bütövlükdə dünya elminin inkişafında misilsiz xidmətləri olmuşdur. Lakin, tarix boyu baş verən ictimai-siyasi proseslər fonunda Azərbaycan torpaqlarının işğala məruz qalması, xüsusilə Çar Rusiyası tərəfindən ilhaq olunması digər sahələrdə olduğu kimi elmin də inkişafına təsirsiz ötüşməmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəinki müstəqil dövlətimiz quruldu, eyni zamanda elmimizin, təhsilimizin, mədəniyyətimizin inkişafı üçün əlverişli zəmin yaranmış oldu. AXC dövründə daxili siyasətdə digər sahələrlə yanaşı, elm və təhsilin inkişafı istiqamətində bir sıra işlər görülmüş oldu. Təhsilin ana dilində aparılması barədə verilmiş qərar həm elmin və təhsilin inkişafına, həm də xalqın milli şüurunun daha da inkişaf etməsində mühüm rol oynadı. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay mövcud olmasına baxmayaraq həyata keçirilmiş tədbirlərin xalqın maariflənməsində, elmin gələcək inkişafında rolu böyük olmuşdur.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra digər ucqarlarda olduğu kimi hər bir sahə, o cümlədən elm də mərkəzin tələbləri istiqamətində fəaliyyət göstərirdi. Lakin, buna baxmayaraq Azərbaycan SSR-də elm yüksələn xətlə inkişaf etmiş və Azərbaycan alimləri dünya elminə böyük töhfələr vermişdir.

1969-cu il iyulunda 14-də Azərbaycan SSR-nin tarixində yeni bir inkişaf mərhələsinə gətirib çıxaracaq mühüm tarixi hadisə baş verdi. Belə ki, həmin tarixdə görkəmli dövlət xadimi, xalqını, millətini sevən Ulu Öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçildi. Böyük idarəçilik təcrübəsi olan Heydər Əliyev bu vəzifəyə gələnə kimi general-mayor rütbəsinədək qalxmaqla Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə qədər yüksəlmişdir [9, s.400].

Mətn. Ümummilli lider Heydər Əliyev Azərbaycana istər birinci, istərsə də ikinci rəhbərliyi dövründə digər sahələrlə yanaşı, elm və təhsilin inkişafını daim diqqət mərkəzində saxlamış, milli kadr potensialının formalaşmasına xüsusi diqqət göstərmişdir. Məlumdur ki, Sovet dövründə milli kadrlar idarəçilikdən uzaqlaşdırılmışdır ki, bu da nəinki elmin, bütövlükdə milli maraqların müdafiə olunmasını da buxovlayırdı. Bütün bu təzyiqlərə baxmayaraq Heydər Əliyev birinci katib seçildikdən sonra təqiblərə məruz qalan görkəmli elm adamlarını, ziyalıları, alimləri müdafiə etmiş, onların sosial problemləri ilə yaxından maraqlanaraq köməkliyini belə əsirgəməmişdir.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə milli özünüdərk yeni bir inkişaf mərhələsinə qədəm qoymuş oldu. Məlum olduğu kimi hələ repressiyalar dövründən başlayaraq ziyalı və alimlərin təqibi davam edir, onların həyatı üçün hər an təhlükə gözlənilirdi. Belə bir vəziyyətdə məhz Ulu Öndərin qətiyyəti sayəsində Azərbaycan alim və ziyalılarının yaradıcılığına dəstək göstərilməklə yanaşı, Bəxtiyar Vahabzadə, Ziya Bünyadov, Əkrəm Əylisli, Xəlil Rza kimi görkəmli alim və ədiblərimiz repressiya təhlükəsindən xilas olmuşdular. Bu Heydər Əliyevin bütövlükdə Azərbaycan ziyalılarına olan diqqət və qayğısının bariz təzahürüdür [7, s.211].

Xatırladaq ki, Ümummilli liderimizin həyatı və fəaliyyəti, onun nəinki Azərbaycan elmi, digər sahələrin də inkişafında rolu və xidmətləri həm Respublikamızda, həm də ölkəmizdən kənada öyrənilməklə bununla bağlı müxtəlif dillərdə kitablar nəşr edilmişdir. Xalq yazıçısı, əməkdar jurnalist Elmira Axundovanın müəllifi olduğu, 2019-cu ildə nəşr edilmiş "Hakimiyyət yükü altında (1923-1982)" adlı kitabda Heydər Əliyevin digər sahələrlə yanaşı, elmin inkişafı sahəsində xidmətlərindən də bəhs olunur.

Diqqət çəkən məqamlardan biri də müəllifin Ulu Öndər Heydər Əliyevlə təmasda olan şəxslərin dilindən gətirdiyi faktlardır ki, bu da böyük şəxsiyyətin xalqı qarşısında olan xidmətlərini daha aydın müşahidə etməyə imkan verir. Diqqətimi akademik Arif Mehdiyevin fikirləri cəlb etdi. Müəllif göstərir ki, Arif Mehdiyevin dediyinə görə, "müdrik və uzaqgörən siyasətçi olan Heydər Əliyev çox gözəl bilirdi

ki, elmi-texniki tərəqqi, müasir qabaqcıl texnologiyanın işlənib hazırlanması və tətbiqi olmadan iqtisadiyyatın və sosial sahənin inkişafı ağlasığmazdır. Elmlər Akademiyası irəliyə kəskin sıçrayış etdi. O dövrdə Azərbaycanda elmin yeni istiqamətləri yarandı, aerokosmik, geofiziki və biofiziki tədqiqatlar inkişaf tapdı, sənayenin elmtutumlu sahələri, xüsusilə cihazqayırma, elektronika və digər sahələr meydana gəldi. Yeni ali təhsil müəssisələrinin yaradılması, yeni elmi tədqiqat İnstitutlarının yaradılması, elmi tədqiqat dairəsinin genişləndirilməsi, Elmlər Akademiyasının sürətli inkişafı üçün baza təşkil edirdi" [1, s.469].

Bu onu göstərir ki, 1945-ci ildə təşkil olunmuş Azərbaycan SSR Elmlər Akademiyasının fəaliyyətində 1969-cu ildən sonra yeni bir inkişaf dövrü başlanmışdır. Belə ki, elmi tədqiqatların əhatə dairəsi genişlənməklə yanaşı, əvvəlki dövrlə müqayisədə həm elmi kadrların hazırlanmasına diqqət artırılmış, həm də daha keyfiyyətli elmi tədqiqatlar aparılmaqda idi.

Ulu Öndərin uzaqgörən fəaliyyəti və köməkliyi ilə azərbaycanlı gənclərin ali təhsil almaq üçün müxtəlif nüfuzlu ali məktəblərdə oxumağa göndərilməsi nəinki, təhsilin və elmin inkişafı üçün yeni imkanlar açmış olur, eyni zamanda Sovet hakimiyyəti qurulduqdan sonra etnik və milli mənsubiyyətinə görə təqiblərin olmasına baxmayaraq milli kadr potensialının formalaşdırılmasına şərait yaratmış olurdu.

Eyni zamanda Azərbaycan Elmlər Akademiyasında Ulu Öndər Heydər Əliyevin birbaşa diqqət və qayğısı sayəsində müxtəlif istiqamətdə elmi tədqiqatlar aparılmaqla yanaşı, həm elmi kadr potensialının daha da inkişaf etdirilməsinə, həm də elmi-tədqiqat müəssisələrinin zəruri avadanlıqlarla təchiz olunmasına diqqət artırıldı, humanitar elmlər sahəsində isə elmi tədqiqatların daha da dərinləşdirilməsi, tariximizin öyrənilməsi istiqamətində tədqiqatların aparılması da diqqətdən kənarda qalmadı.

Xatırladaq ki, artıq 70-ci illərdə Azərbaycanda iqtisadi və sənaye sahəsində inkişaf göz önündə idi. Belə ki, 1971-1985-ci illərdə sərmayə qoyuluşu 32 milyard rubl (manat) təşkil edirdi [10, s.117]. Bu vəziyyət artıq elmi tədqiqatların daha çox səmərə verəcək hansı iqtisadi sahədə aparılmasını müəyyənləşdirməyə imkan verirdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycan elminin bütün sahələrinin inkişafını diqqət mərkəzində saxlayaraq mütəmadi olaraq elmi-tədqiqat işləri ilə maraqlanırdı. Belə ki, Heydər Əliyevin hələ XX əsrin 70-ci illərində Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutuna gəlməsi və elmi-tədqiqat işləri ilə yaxından tanış olması bu sahədə aparılan tədqiqatlara yeni nəfəs verdi.

Hər birimizə məlumdur ki, 70-ci illərdə Azərbaycan keçmiş SSRİ-nin tərkibində olduğu dövrdə milli ayrı-seçkilik siyasəti, o cümlədən qeyri-rus xalqların ikinci dərəcəli hesab edilməsi kimi bir yanaşma mövcud idi. Lakin, Heydər Əliyev şəxsi həyatı bahasına olsa belə xalqımıza qarşı hər bir mənfi yanaşmanın qətiyyətlə qarşısını alır və nəinki elmi sahədə, bütün digər sahələrdə də bu yanaşmanı qəbul edə bilmirdi.

Diqqət çəkən məqamlardan biri Ulu Öndər Heydər Əliyevin 1972-ci ildə SSRİ Elmlər Akademiyasının prezidenti, akademik M.Keldışla görüşü idi. Hansı ki, bu görüşün böyük əhəmiyyəti oldu. Görüşdə Heydər Əliyev çıxışı zamanı M.Keldışın fəaliyyətini yüksək qiymətləndirdi. Maraqlıdır ki, bu görüşdən sonra Heydər Əliyev şəxsiyyəti simasında M.Keldışın Azərbaycan elminə və Elmlər Akademiyasına münasibəti müsbət mənada tamamilə dəyişdi. Bu Heydər Əliyevin Azərbaycan Elmlər Akademiyası qarşısında böyük xidmətlərindən biridir. Çünki, artıq M.Keldış özü də təsdiq etdi ki, azərbaycan xalqı nəinki, SSRİ elminə, bütövlükdə dünya elminə töhfə verəcək bir gücə malikdir və onun fəaliyyətini yüksək qiymətləndirən Heydər Əliyev kimi bir müdrik rəhbəri vardır. Təsadüfi deyildir ki, sonralar M.Keldış həmin dövrdə tapılması çətin olan avadanlıqların Azərbaycan Elmlər Akademiyası tərəfindən əldə olunmasına yaxından kömək etdi ki, bu da yeni tədqiqatların aparılması üçün böyük əhəmiyyətə malik idi [3, s.677].

Heydər Əliyev elmin inkişafında dilin mühüm rola malik olmasını, doğma Azərbaycan dilində vəsaitlərin nəşrinin əhəmiyyətini uzaqgörənliklə təhlil edərək, Azərbaycan dili və ədəbiyyatının inkişafına da biganə qalmamışdır. Belə ki, Sovet Rusiyasının ruslaşdırma siyasəti yeritdiyi bir dövrdə milli dilin istifadəsi ilə bağlı zəruri qərarların qəbulu və bu istiqamətdə ideoloji işin aparılması və Azərbaycan dilinin inkişafı ilə bağlı müəyyən işlərin görülməsi böyük cəsarət və bacarıq tələb edirdi. Ulu Öndər Azərbaycana birinci rəhbərliyi dövründə, daha doğrusu elə MK-nın birinci katibi seçildiyi dövrdən etibarən Azərbaycan dili, onun inkişafı və təbliği məsələsini də daim diqqət mərkəzində saxlayırdı.

Təsadüfi deyildir ki, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) 1970-ci ildə 50 illiyi münasibətilə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyev doğma dilimizdə çıxış etdi. Bu Azərbaycan dilinin təbliği və milli dilə olan diqqət və hörmətin bariz nümunəsidir [8, s.11]. Danılmaz faktdır ki, 1978-ci ildə qəbul edilən Azərbaycan SSRİ-nin Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olaraq daxil edilməsi böyük təzyiqlərə səbəb olmuşdur. Lakin, Ulu Öndərin şəxsi cəsarəti və təşəbbüsü sayəsində bu sahədə olan maneələr tamamilə aradan qaldırılaraq Konstitusiyanın 73-cü maddəsində Azərbaycan dili ilə bağlı müddəa aşagıdakı kimi verildi: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" . Bu həm doğma dilimizdə gələcək elmi tədqiqatların aparılmasına, həm də Azərbaycan dilinin gələcək inkişafına böyük bir stimul vermiş oldu.

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan Heydər Əliyev eyni zamanda görkəmli ədiblərimizin, şair və yazıçılarımızın ümid yeri idi. Azərbaycan Yazıçılar İttifaqının 1971, 1976 və 1981-ci illərdə keçirilən müvafiq olaraq beşinci, altıncı və yeddinci yığıncaqlarında Ulu Öndər şəxsən iştirak etmişdir. Bu dahi liderin hər zaman elm xadimlərinin, ədiblərin yanında olmasının bariz nümunəsi idi [10, s.149;184].

XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-də digər sahələrdə olduğu kimi kosmik tədqiatların aparılması və astronomiya sahəsində də xeyli işlər görülmüş oldu. 1978-ci ildə Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinin Bakı şəhərində fəaliyyətə başlaması böyük tarixi hadisə idi. Çünki, bu sahədə aparılan tədqiqatlar artıq təkcə Azərbaycan və SSRİ elmi üçün deyil, bütövlükdə dünya elmi üçün əhəmiyyətli olacaq və gələcəkdə daha perspektivli tədqiqatların başlanğıcı demək idi [9, s.418].

Azərbaycanda təbiət elmləri, o cümlədən biologiya və onunla əlaqəli digər elm sahələrində 70-ci illərdə yeni bir inkişaf mərhələsi başlanmış oldu. Məlumdur ki, hal-hazırda da mövcud olan, eyni zamanda fauna və floramızın müxtəlif növlərinin mühafizə olunmasının göstəricisi olan "Qırmızı kitab"ın əsasının qoyulması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin 1977-ci ildə "Qırmızı kitabın" təsis olunması barədə qərarı bu nöqteyi-nəzərdən mühüm əhəmiyyətə malikdir [2].

Ötən əsrin 70-ci illərində neft sənayesi ilə yanaşı, kimya və neft-kimya elmləri də inkişaf etməkdə idi. Ulu Öndər Azərbaycanın gələcək inkişafında neftin oynayacağı mühüm rolu vaxtında dəyərləndirərək bu sahənin də inkişafı üçün əlindən gələni edirdi. Əlbəttə, bu sahənin inkişafı üçün başlıca şərt olacaq sərmayə qoyuluşunun həcmi artmış və Azərneftyanacaq İstehsalat Birliyi tikilib istismara verilmişdir.

Azərbaycanda elmin müxtəlif sahələrində aparılan tədqiqatların gələcək nəticələrini əvvəlcədən təhlil edən Heydər Əliyev mikrobiologiya sahəsində də tədqiqatların aparılmasına mühüm əhəmiyyət verirdi. 1970-ci ilin oktyabr ayında Azərbaycan Dövlət mükafatına layiq görülən alimlərlə görüşü zamanı Ulu Öndər Heydər Əliyev çıxış edərkən mikrobiologiya elminin inkişafı zərurətindən danışmışdır. Bu sahədə aparılan tədqiqatlarda mühüm rolu olan Azərbaycan Elmlər Akademiyasının nəzdində Mikrobiologiya sektoru da məhz 1972-ci ildə Heydər Əliyevin şəxsi diqqət və qayğısı nəticəsində açılmışdır [3, s.679-680].

Kənd təsərrüfatının inkişafı üçün əlverişli təbii-coğrafi şəaitə malik olan Azərbaycanda kənd təsərrüfatında müəyyən gerilik müşahidə edilir, istehsal aşağı düşmüşdü. Belə bir vəziyyət Ulu Öndər

Heydər Əliyevi narahat etməyə bilməzdi. Azərbaycan KP MK-nın 1970-ci il avqust plenumunda iştirak edən Ulu Öndər uzunmüddətli geriliyin və böhranın səbəbləri və mövcud vəziyyətdən çıxış yolları barədə ətraflı çıxış etdi [10, s.176]. Qeyd edək ki, bu istiqamətə diqqət artırılmaqla Azərbaycanda kənd təsərrüfatı sahəsində mütəxəssislərin hazırlanması və kənd təsərrüfatı sahəsində xüsusilə, taxılçılıq sahəsində istehsalın daha da artırılması məqsədilə zəruri tədbirlər görüldü.

Heydər Əliyev ziyalılara, alimlərə və tarixi şəxsiyyətlərə hər zaman diqqətlə yanaşırdı. Ulu Öndərin 1969-cu ildə Nəriman Nərimanovun anadan olmasının 100 illiyinin qeyd edilməsi barədə sərəncamı, 1970-ci ildə Nəriman Nərimanovun ev muzeyinin açılması, abidəsinin ucaldılması və digər görülmüş işlər bunun bariz nümunəsidir [4].

Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövründə yuxarıda qeyd olunan elm sahələrinin inkişafı üçün görülmüş işlərlə yanaşı, ictimai elmlərin də inkişafı üçün mühüm işlər görülmüşdür. Xalqını, vətənini sevən Ümummilli lider Heydər Əliyev Azərbaycanın tarixinə, onun tədqiqi və öyrənilməsinə, eyni zamanda bu sahədə tədqiqatların aparılmasına xüsusilə diqqət yanaşırdı. Bunun bariz nümunəsi olan, məhz Heydər Əliyevin birbaşa tağşırığı, görkəmli tarixçi alimlərin müəllifliyi ilə yeddi cilddən ibarət "Azərbaycan tarixi" kitabı 1998-2002-ci illərdə nəşr olundu. Müstəqillik əldə etdikdən sonra belə bir fundamental kitabın nəşri Azərbaycan tarixinin elmi cəhətdən tədqiqində, öyrənilməsində, zəngin tarixi faktların həm bu sahənin mütəxəssislərinə, həm də geniş oxucu kütləsinə çatdırılmasında böyük bir yenilik idi [9, s.535].

Heydər Əliyev bədnam düşmənlərimizin XX əsr boyu xalqımızın başına gətirdiyi tarixi faciələri və bunun gələcək fəsadlarını dərindən təhlil edərək, ölkəmizin keçmişini, xüsusilə qədim dövr tariximizin öyrənilməsi üçün arxeoloji tədqiqatların aparılmasını da diqqətdən kənarda qoymamışdır. Hansı ki, dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanda eyni zamanda orta əsrlərdə inkişaf etmiş şəhər mədəniyyəti mövcud olmuş və intibah dövrünü yaşamışdır. Qeyd olunanları isə yazılı mənbələrlə yanaşı, daha təfsilatı ilə məhz arxeoloji qazıntılar əsasında əldə olunan maddi-mədəniyyət nümunələrinə əsasən daha ətraflı öyrənmək mümkündür. Hansı ki, yazılı mənbələrin bizə verə bilmədiyi məlumatları arxeoloji materiallara əsasən əldə etmək mümkündür. Ulu Öndərin tariximizin öyrənilməsinə böyük qayğısınını bariz nümunəsidir ki, 1975-ci ildən başlayaraq Azərbaycanın Qəbələ ilə yanaşı, Naxçıvan, Gəncə, Şamaxı, Şəki, Quba və digər ərazilərində arxeoloji bazalar yaradılmışdır ki, həmin ərazilərin arxeoloji cəhətdən öyrənilməsində bu arxeoloji bazalar mühüm əhəmiyyətə malik olmuşdur [5, s.11].

Azərbaycanın hər bir şəhəri özündə böyük bir tarixi keçmişi ehtiva edir. Belə şəhərlərdən biri də Qəbələdir. 1977-ci ildə Qəbələ radiolokasiya stansiyası inşa edilərkən elektrik xətlərinin şəhərin ərazisindən keçməsi milliyyətcə erməni olan mütəxəssislər tərəfindən layihələndirilmişdir. Burada inşa işlərinin aparılmasının tarixi nöqteyi-nəzərdən yolverilməzliyi barədə arxeoloqlar tərəfindən etiraz edilsə də, buna heç bir məhəl qoyulmamışdır. Belə bir acınacaqlı vəziyyət barədə alimlərimiz çıxış yolunu Ulu Öndərdə görmüş və bu barədə Heydər Əliyevə məlumat verilmişdir. Heydər Əliyevin birbaşa göstərişi ilə Mərkəzi Komitənin 1978-ci il 17 yanvar tarixli iclasında qeyd olunan məsələ müzakirə edilərək zəruri qərar qəbul edildi və günahkarlar cəzalandırılmış oldu. Bununla yanaşı, bir müddət sonra şəhərin ərazisi Dövlət qorğu elan olunmuşdur. Bu qərar 2500 illik bir tarixə malik olan, Albaniya dövlətinin paytaxtı olmuş bir şəhərin qədim dövr tarixinin məhv edilməsinin qarşısını almaqla yanaşı, Ulu Öndərin tarixi və mədəni irsə nə qədər əhəmiyyət verdiyini bir daha göstərdi [6, s.364-371]. Həmin dövrdə eyni zamanda şəhərin arxeoloji cəhətdən öyrənilməsi işi də davam etdirilirdi. 80-ci illərin ortalarına qədər Qəbələ ərazisində Qara Əhmədov, İlyas Babayev, Firidun Qədirov, Qafar Cəbiyevin rəhbərliyi ilə şəhərin müxtəlif ərazilərində arxeoloji tədqiqatlar aparılmışdır [5, s.11]. Bu tədqiqatlar təkcə Qəbələ şəhəri ilə lokallaşmamış, digər orta əsr şəhərlərində də arxeoloji tədqiqatlar aparılmışdır.

Həmin tədqiqatlar bu gün də uğurla davam etdirilir. Əldə olunmuş maddi-mədəniyət nümunələri zəngin tarixi keçmişimiz barədə dəqiq elmi məlumatları özündə ehtiva edir.

Nəticə. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə sosial-iqtisadi, siyasi və mədəni sahədə olan inkişafla yanaşı, elmin müxtəlif sahələri də inkişaf etmiş, elmi-tədqiqat müəssisələrinin texniki təminatına böyük diqqət göstərilmişdir. Nəinki, elm və təhsil sahəsində çalışan mütəxəssislərin, peşəsindən asılı olmayaraq hər bir şəxsin faydalana biləcəyi, dövrünə görə böyük əhəmiyyəti olan 1976-1987-ci illər aralığında on cilddən ibarət olmaqla Azərbaycan Sovet Ensiklopediyasının nəşr edilməsi mühüm əhəmiyyətə malik elmi nəşrlərdən biridir [9, s.422]. Qeyd olunanlar elmin inkişafına Ulu Öndərin göstərdiyi diqqət və qayğının yalnız müəyyən bir hissəsidir. Bu barədə əlavə tədqiqatların aparılması zəruridir. Çünki, Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin öyrənilməsi böyük bir zaman tələb edir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan bu gün Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir. Azərbaycan elmi yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Belə ki, aparılan elmi tədqiqatların keyfiyyəti artmaqla yanaşı, həm də yeni gənc alimlər nəsli formalaşmışdır. Sevindirici haldır ki, hər il doktoranturaya keçirilən imtahanlarda namizədlər içərisində gənclər çoxluq təşkil etməklə yanaşı, eyni zamanda elmi tədqiqatların aparılmasına maraq da durmadan artmaqdadır.

Ali Baş Komandanımızın rəhbərliyi və ordumuzun rəşadəti sayəsində torpaqlarımız işğaldan azad edilərək 30 illik həsrətə son qoyuldu. Artıq işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri ilə yanaşı, zəngin tarixi keçmişə malik olan həmin ərazilərdə arxeoloji tədqiqatlara da başlanılmışdır. Bu tədqiqatlar sayəsində işğaldan azad edilmiş rayonlarımızın qədim dövr tarixi daha ətraflı tədqiq olunmaqla yeni tarixi faktlar üzə çıxarılacaqdır. Qədim tarixə malik olan Xankəndi şəhərində isə Qarabağ Universitetinin timsalında ali təhsil müəssisəsinin fəaliyyətini yenidən bərpa etməsi regionda elmin və təhsilin inkişafına öz töhfəsini vermiş olacaqdır.

Ədəbiyyat

1. Axundova, E. Hakimiyyət yükü altında (1923-1982) / E. Axundova. – Bakı: "Şərq-Qərb", – 2019. – 544 s.+ 48 s. foto.
2. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ı [Elektron resurs] / URL: https://eco.gov.az/index.php?ln=az&pg=693
3. Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi / Yeni Azərbaycan Partiyasının İcra Katibliyi. – Bakı: Azərbaycan nəşriyyatı, – 2005. – 911 s.
4. Köçərli, X. Tarix elmimizin böyük himayədarı // Xalq qəzeti. – 2013, 22 aprel. URL: https://old.xalqqazeti.com/az/news/education/33174.
5. Qasımzadə, Ə.H. Qəbələnin orta əsr keramikası (XI-XIII əsrlər). Monoqrafiya / Ə.H.Qasımzadə. – Bakı: Mütərcim, – 2025. – 216 s.
6. Mahmudov, Y.M. Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar: [2 cilddə] / Y.M. Mahmudov. – Bakı: Turxan NPB, – c. 1. – 2013. – s. 364-371.
7. Məmmədov, İ., Məmmədov Ç. Azərbaycan tarixi (XX əsr-XXI əsrin əvvəlləri). Mühazirələr kursu. Ali məktəb müəllimləri və tələbələri üçün dərs vəsaiti / İ. Məmmədov, Ç. Məmmədov. – Bakı: Uni-print, – 2010. – 336 s.
8. Sadıqlı A.Ə. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili / A. Ə.Sadıqlı. – Bakı: "Mütərcim" nəşriyyatı, – 2011. – 180 s.
9. Yusifov, Y.B. XX əsr Azərbaycan tarixi [2 cilddə] / Y.B.Yusifov, T.T. Vəliyev. – Bakı: Çaşıoğlu, – c. 2. – 2004. – 558 s.

10. Zeynalov, İ. Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: Dahi şəxsiyyətin şərəfli ömür yolu / İ. Zeynalov. – Bakı: Füyuzat, – 2024. – 656 s.

Məqalənin redaksiyaya daxilolma tarixi: 25.06.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.06.2025
Məqalənin çapa qəbul olunma tarixi: 07.07.2025